


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 216 (23.858)

*20 noyabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri lokomotiv deposunun açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. QSC-nin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə yeni Biləcəri lokomotiv deposunda yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, yeni depoda lokomotivlərin texniki baxışı və təmiri işləri aparılacaq. MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan bu cür deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Deponun üzərində günəş panelləri quraşdırılıb ki, alınan enerji depoda istifadə olunur. Burada zəruri infrastruktur yaradılıb. Yeni depoların nəzərdə tutulduğu dəyişən cərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. 28-i yük və 10-u sərnişin lokomotivi olmaqla, 38 müasir “Alstom” lokomotivi artıq Azərbaycana gətirilib. Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə, yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksəkixtisaslı işçi çalışacaq.

Dövlətimizin başçısı yeni deponun açılışını edib.



# Muxtar respublika bələdiyyələrinə yeni kommunal təyinatlı texnikalar verilib





Yaşayış məntəqələrində kommunal xidmətlərin yaxşılaşdırılması, məişət tullantılarının yığılması və daşınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, bələdiyyələr üçün müasir tələblərə cavab verən kommunal təyinatlı texnikalar alınır. Yeni texnikalardan istifadə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, ekoloji-sanitar mədəniyyətin formalaşmasına da böyük təsir göstərir.

Noyabrın19-da muxtar respublika bələdiyyələrinə kommunal təyinatlı 16 traktor və qoşqusu, eləcə də 2 “NAZ Lifan-330” markalı avtomobil təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov demişdir ki, muxtar respublikada kommunal müəssisələrin, bələdiyyələrin, yerli icra orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılır. Müasir üslubda tikilən kənd mərkəzlərində bələdiyyələr üçün müasir iş şəraiti yaradılır, fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmaları üçün lazımi infrastruktur formalaşdırılır. Ali Məclis Sədrinin tapşırığı ilə 2017-ci ildən başlayaraq bələdiyyələr digər fəaliyyət növləri ilə yanaşı, kommunal xidmətlərin də həyata keçirilməsinə başlamışlar. Bələdiyyələr öz ərazilərində məişət tullantılarının yığılması, müvafiq sahələrə daşınması və zərərsizləşdirilməsini həyata keçirirlər. Məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi, daim dezinfeksiya tədbirlərinin vaxtında keçirilməsi muxtar respublikada epidemioloji vəziyyətə də təsir göstərmişdir. Bu gün bələdiyyələr ilə yanaşı, muxtar respublika bələdiyyələrində 240-dan artıq əmək müqaviləsi ilə işçi işə cəlb olunmuşdur ki, onlardan 66-sı avtonəqliyyat vasitələrinin sürücüləridir. Kommunal təyinatlı texnikaların verilməsi bələdiyyələrin işinin yaxşılaşdırılması ilə bərabər, əhaliyə göstərilən xidmətin də keyfiyyətinin yüksəldilməsinə imkan verəcəkdir. Səbuhi Məmmədov muxtar respublika bələdiyyələri və sakinlər adından yaradılan şəraitə görə minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycan Respublikasında bələdiyyələrin fəaliyyəti “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. O Qanunun müvafiq maddəsində göstərilir ki, bələdiyyələrin bir vəzifəsi də bələdiyyə ərazilərinin abadlaşdırılması, bələdiyyə ərazilərində məişət tullantılarının yığılması və zərərsizləşdirilməsi, eyni zamanda ətraf mühitin çirklənməsinin qarşısının alınmasından ibarətdir. Bu vəzifələrin yerinə yetirilməsi üçün isə bələdiyyələrin şəraiti, imkanları olmalıdır. Bu gün muxtar respublikada 170 bələdiyyə fəaliyyət göstərir. Onlardan əhalisinin sayı 5 mindən yuxarı olan 5 şəhər, 3 qəsəbə və 7 kənd bələdiyyəsi vardır. Onlar artıq lazımi nəqliyyat vasitələri ilə təmin olunublar. Bu gün alınan 16 texnika da yerləşdiyi ərazi və əhalisinin sayı nəzərə alınaraq bələdiyyələrə verilir. Artıq bu gün muxtar respublikada 60-dan yuxarı bələdiyyənin bu cür imkanları var. Eyni zamanda hər bələdiyyənin qonşu bələdiyyəyə xidmət göstərmək imkanı da vardır.

“Bələdiyyələrin iş şəraiti yaxşılaşdırılır, yeni tikilən kənd mərkəzlərində bələdiyyələr üçün iş otaqları ayrılır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, müasir iş şəraiti imkan verir ki, bələdiyyələr əhali ilə rahat işləyə bilsin. Bu texnikalar ərazinin abadlaşdırılması, təmizliyi ilə bərabər, yeni iş yerləri deməkdir. Artıq burada 16 mütəxəssis işə cəlb olunacaq, həmçinin müqavilə yolu ilə onlarla şəxs işə götürüləcəkdir. Bir sözlə, bu gün bələdiyyələrin fəaliyyətinin təmin olunması üçün lazımi işlər görülür. Bələdiyyələr də fəaliyyətlərini qanunauyğun olaraq həyata keçirməlidirlər. Bələdiyyələr, sadəcə,yaradılmış formal təşkilat deyil, onlar seçilmiş təşkilatlardır. Ona görə də əhali ilə qarşılıqlı əlaqə qurulmalı, rayon icra hakimiyyətləri bələdiyyələrlə işə üstünlük verməli, işin səmərəliliyi artırılmalıdır. Bələdiyyələr bu gün dövlətin xalq tərəfindən seçilmiş orqanı kimi fəaliyyətlərini Azərbaycan Respublikasının müvafiq qanununa uyğun qurmalıdır.

Ali Məclisin Sədri bələdiyyə sədrlərini yeni texnikaların təqdim olunması münasibətilə təbrik etmiş, işlərində uğurlar arzulamışdır.

Ordubad bələdiyyəsinin sədri Eldar Zeynalov demişdir: “Bələdiyyələrin maddi-texniki bazası gücləndirilmişdir. Ali Məclis Sədrinin bələdiyyələrlə görüşündə verdiyi tapşırıqları rəhbər tutaraq çalışırıq ki, fəaliyyətimizi günün tələbləri səviyyəsində quraq”.

Sonra texnikalara baxış olmuşdur. Məlumat verilmişdir ki, yeni kommunal təyinatlı 16 traktor və qoşqusu Şərur rayonunun Gümüşlü, Kürçülü, Oğlanqala və Dərvişlər, Babək rayonunun Vayxır, Yuxarı Uzunoba və Didivar, Ordubad rayonunun Aşağı Əndəmic və Üstüpü, Culfa rayonunun Əlincə və Kırna, Şahbuz rayonunun Kükü və Külüs, Kəngərli rayonunun Çalxanqala və Böyükdüz, Sədərək rayonunun Qaraağac bələdiyyələrinin istifadəsinə verilir. Yeni texnikalar qeyd olunan yaşayış məntəqələrində əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldəcək, məişət tullantılarının vaxtında daşınmasına şərait yaradacaqdır. Həmçinin Şərur və Ordubad bələdiyyələrinə 2 “NAZ Lifan-330” markalı minik avtomobili verilmişdir.

Şərur bələdiyyəsinin sədri Orxan Ağayev rayon bələdiyyələri adından göstərilən qayğıya görə minnətdarlıq edərək demişdir: “Muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da abadlıq və quruculuq işləri davam etdirilmişdir. Rayonun mərkəzi küçələrindən ucqar dağ kəndlərinə qədər aparılan abadlıq-quruculuq işləri Şərur şəhərini daha da gözəlləşdirmiş və müasirliyə qovuşdurmuşdur. Söz veririk ki, qurulanları göz bəbəyimiz kimi qoruyub saxlayacaq, verilən xidməti avtomobil və texnikalardan səmərəli istifadə edəcəyik. Bundan sonra da verilmiş tapşırıqların vaxtında icrası üçün səylə çalışacaq, fəaliyyətimizi günün tələblərinə uyğun quracağıq”.

Ali Məclisin Sədri texnikalardan səmərəli istifadə olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Müstəqil Azərbaycanın aparıcı siyasi qüvvəsi

***Çoxəsrlik tarixə, qədim və zəngin keçmişə malik Azərbaycan xalqı tarixboyu öz müstəqil dövlətini yaratmaq, onu qorumaq, inkişaf etdirmək amalı ilə daim mübarizə aparmışdır. Xalqın qəhrəmanlıq ənənələrini özündə əks etdirən bu mübarizə ağır sınaqlardan keçmişdir. Zəngin dövlətçilik ənənələrini özündə yaşadan xalqımız, nəhayət, ötən əsrin 90-cı illərində öz müstəqilliyinə yenidən qovuşdu. Lakin müstəqilliyi əldə etmək nə qədər zəruridirsə, onu qoruyub saxlamaq, möhkəmləndirmək bundan daha vacib, çətin və şərəfli işdir.***

Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan tarixinin mürəkkəb və təlatümlü dövrü idi. Ölkəni düşdüyü böhranlı vəziyyətdən güclü lider və mütəşəkkil siyasi qüvvə çıxara bilərdi. Azərbaycanda belə bir lider, görkəmli şəxsiyyət və dövlət xadimi ulu öndər Heydər Əliyev idi. Onun ətrafında bütün ölkə ziyalılarının, vətənsevərlərin toplaşdığı partiya isə Yeni Azərbaycan Partiyası oldu. Beləliklə, 21 noyabr 1992-ci il şanlı tariximizin ən əlamətdar təqvimlərindən birinə çevrildi. Məhz həmin gün Yeni Azərbaycan Partiyasının yarandığı gündür.

Ulu öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqilliyi üçün çalışmış, müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atmışdır. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, qədim Naxçıvan torpağı erməni təcavüzündən qorunmuşdur. Dahi rəhbərin o çətin dövrdə Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqil dövlətçiliyimizin bünövrəsini qoymuşdur. Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması da bu yolda qəbul edilən ən mühüm qərarlardan idi. Naxçıvanda görülən işlər Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etmişdi.

Beləliklə, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi kimi ortaya çıxdı. Hakimiyyət uğrunda mübarizə, səriştəsiz siyasət, dövlətə, xalqa qarşı edilən xəyanətlər Azərbaycanı nəinki yenicə qazandığı müstəqilliyini itirmək, hətta bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşdirmişdi. Məhz belə bir faciəli vəziyyətdə xalqı təlaşdan çıxarmağa, onun sabaha inamını qaytarmağa qadir olan mütəşəkkil siyasi qüvvənin – partiyanın yaranması zamanın tələbi idi. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Azərbaycanın bir qrup görkəmli ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə ulu öndərdən ölkənin bütün sağlam qüvvələrini birləşdirən bir siyasi təşkilata rəhbərlik etmək xahiş olunurdu. 1992-ci il oktyabrın 16-da həmin ziyalıların "Səs" qəzetində ulu öndər Heydər Əliyevə ***"Azərbaycan sizin sözünüzü gözləyir"*** başlıqlı müraciətinə cavab məktubunda ümummilli liderin yaranmış vəziyyəti dərindən təhlil etməsi və çıxış yolunu göstərməsi noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirdi. Xalqımızın dahi oğlu o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Sədrlik edirdi. Ölkəmizin ayrı-ayrı bölgələrindən cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını tarixi şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək demişdir: ***"O vaxt, əlbəttə ki, partiyanın yaranması yalnız ayrı-ayrı şəxslərin, bu partiyanın yaranmasında çox təşəbbüs göstərmiş insanların, o cümlədən təkcə mənim xidmətim deyildi. Yeni Azərbaycan Partiyası ovaxtkı vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır. Bu partiyanı yaradarkən heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət, sizin hamınıza məlum vəziyyət bizi düşündürürdü. Ona görə də bir tərəfdən biz hesab edirdik ki, partiyanı yaradaraq, biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, ölkənin belə bir ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı".***

Ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı Yeni Azərbaycan Partiyasının fəaliyyətində yeni dövrün əsasını qoydu. Həmin tarixdən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvəyə çevrilərək ictimai-siyasi həyatın bütün sahələrində yüksək fəallıq nümayiş etdirməyə başladı. Keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyası namizədlərinin üstünlük qazanmaları partiyaya olan ümumxalq inamını bir daha təsdiqləmişdir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın nüfuzlu siyasi təşkilatına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur. Çünki 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı. Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, Azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır".***

Bu gün ölkəmizin əsas aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən çox mühüm amillərdən biri partiyanın təməl prinsipləridir. Bunlar müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, Vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalətdir.

Müstəqilliyimizin ilk illərində yaşanan böhran ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasəti nəticəsində aradan qaldırıldı. Xaos, anarxiya, özbaşınalığın sabitlik ilə əvəzlənməsi Azərbaycanın iqtisadi baxımdan qüdrətlənməsinə, siyasi mövqeyinin möhkəmlənməsinə səbəb oldu. ***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"***, – deyən ümummilli lider Heydər Əliyev uğurlu iqtisadi islahatları ilə ölkəmizi tənəzzüldən tərəqqi yoluna çıxardı. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalanması ilə Azərbaycanın iqtisadi inkişafının təməli qoyuldu. Bu, öncəliklə ölkəmizə olan inamın göstəricisi idi. Azərbaycan çox qısa zamanda böyük investisiyalar məkanına çevrildi. Təbii ki, iqtisadiyyatın inkişafı əhalinin sosial rifah halının yaxşılaşmasına da öz müsbət təsirini göstərdi. Xalqın gələcəyə inamı gündən-günə artdı. İlk gündən hüquqi, dünyəvi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın demokratik islahatlar sahəsində qazandığı uğurlar da hər birimizə bəllidir. Söz, mətbuat azadlığı təmin edildi, insan hüquqlarının qorunması sahəsində mühüm addımlar atıldı, ölkədə çoxpartiyalı sistem yaradıldı, seçki praktikası ildən-ilə daha da təkmilləşdirildi. Təbii ki, bütün bunlar Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına səbəb oldu. Ölkəmiz bir sıra nüfuzlu regional və beynəlxalq təşkilatların üzvüdür. Xarici siyasətində ikitərəfli əlaqələrin qurulmasına, inkişafına xüsusi önəm verən dövlətimizin beynəlxalq təşkilatlarla münasibəti də yüksək səviyyədədir. Bütün bu uğurların əldə olunmasında Yeni Azərbaycan Partiyasının rolu böyükdür. Çünki Yeni Azərbaycan Partiyası qələbələr, uğurlar partiyasıdır.

Yeni Azərbaycan Partiyasının cəmiyyətdə daha da güclü siyasi təşkilata çevrilməsində ulu öndər Heydər Əliyevin siyasi xəttini davam etdirən, onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, partiyanın Sədri cənab İlham Əliyevin liderlik amili mühüm rol oynayır. Azərbaycan xalqının ölkə başçısı ətrafında sıx birləşməsi, həyata keçirilən siyasəti dəstəkləməsi, gələcəyə böyük inamla addımlaması Yeni Azərbaycan Partiyasına olan inamı gücləndirib. Cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin yaratdığı inkişaf konsepsiyasının üzərində yeni dövrün reallıqlarına uyğun çevik, özünəməxsus, modern idarəetmə platformasi formalaşdırıb. Azərbaycanın siyasi lideri idarəçilik fəlsəfəsinin yeni komponentlərini yaratmaqla dövlət aparatı sistemində ən mükəmməl və demokratik meyarlara əsaslanan unikal idarəetmə formulu müəyyən edib.

Yüz minlərlə yeni iş yerlərinin açılması, əməkhaqlarının, təqaüd və müavinətlərin dəfələrlə artırılması, ölkəmizdə ildən-ilə geniş vüsət alan quruculuq-abadlıq işləri və infrastruktur layihələri hər bir vətəndaşa layiqli həyat təmin etmək üçün əlverişli şərait yaradıb. Azərbaycan bütün sosial-iqtisadi göstəricilərə görə regionun lider dövlətinə çevrilib.

Ölkəmizin Dağlıq Qarabağ və ətraf ərazilərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi Zəfər xalqımızın çoxəsrlik tarixinin ən böyük hadisəsidir. Tarixi Zəfər məhz Azərbaycan naminə, Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir. Bu müharibənin qalibləri Ali Baş Komandan cənab İlham Əliyev və müzəffər Azərbaycan Ordusu, Azərbaycan əsgəridir. Ən əsası isə Yeni Azərbaycan Partiyasının təməl prinsipi olan xalq-lider-ordu birliyi bu şanlı Qələbəni təmin etdi.

2021-ci il mart ayının 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayı ölkəmizin Vətən müharibəsində Tarixi Qələbəsi ilə nəticələnən və ölkəmizlə bağlı dünyada yaranmış yeni reallıqlar dövrünə təsadüf edir. Həmin qurultay bir daha göstərdi ki, hər zaman siyasi proseslərdə öndə olan hakim partiya yeni dövrə daha fəal, yeniləşmiş formatda qədəm qoyur. Qurultayda çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı... İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaratmışdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranmışdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılmışdır və eyni zamanda ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb".***

Qurultayda partiyanın yeni Nizamnaməsi təsdiq edilmiş, İdarə Heyətinin, Təftiş Komissiyasının yeni tərkibi, habelə yeni yaradılan Veteranlar Şurasının Sədri, müavini və üzvləri seçilmiş, eləcə də 6 siyasi partiya Yeni Azərbaycan Partiyasına qoşulmuşdur.

Yeni Azərbaycan Partiyasının məhz Naxçıvanda yaranması, partiyanın rəhbəri, ulu öndər Heydər Əliyevin xalqın çağırışı və təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə buradan qayıdışı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşəkkül tapıb formalaşmasında müstəsna rol oynamışdır. Ümummilli liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir.

Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində uğurların qazanılmasında bir başlıca səbəb vardır: o da ulu öndərimizin yoluna sədaqət və bu yolun davam etdirilməsidir. Muxtar respublikamızda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. Bu siyasətin mühüm nəticəsi olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvləri, siyasi cəhətdən fəal gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Bu gün 58 minə yaxın partiya üzvünü öz sıralarında birləşdirən muxtar respublika təşkilatı muxtar respublikada siyasi aktiv əhalinin 18 faizini təşkil edir.

Ötən illər ərzində muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb, nəhəng istehsal müəssisələri, çoxsaylı yaşayış binaları, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülüb. Bütün bunlar isə Yeni Azərbaycan Partiyasının təməl prinsiplərinin uğurlu nəticələridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri partiyanın muxtar respublika təşkilatının gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirərək demişdir: ***"Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. "Sağlam cəmiyyət – güclü dövlət" sistemi üzrə doğma Azərbaycanımızın inkişafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimiz – bizim vəzifəmizdir. Vəzifə – partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir".***

*Bu gün əminliklə demək olar ki, yaradıcısı ümummilli lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində dahi lider Heydər Əliyevin ideya və arzuları yaşayır. Yeni Azərbaycan Partiyası bu günün və gələcəyin siyasi partiyası kimi ölkəmizin inkişafına güclü təsirini bundan sonra da davam etdirəcəkdir.*

**Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi**

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü qeyd olunub

*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü ilə əlaqədar tədbir keçirilib. Əvvəlcə partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəman övladların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov ötən 29 ildə şərəfli yol keçmiş, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində önəmli rol oynamış, partiyanın ətrafında toplanmış insanların, xüsusilə ötən illər ərzində qədirbilən xalqımızın inamını və etimadını doğrultmuş Yeni Azərbaycan Partiyasının möhtəşəm siyasi, iqtisadi uğurlarından bəhs edib.

Yeni Azərbaycan Partiyasının yaranma tarixindən danışan Bəxtiyar Əsgərov qeyd edib ki, partiya 29 ildə öz əsas məqsədlərinə uyğun fəaliyyət göstərib və demək olar ki, o məqsədlərə nail ola bilib. Vurğulanıb ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası son 30 ildə əsrə bərabər inkişaf yolu keçib, bütün sahələrdə nailiyyətlər əldə edib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs muxtar respublikada Ali Məclisin Sədri tərəfindən uğurla davam etdirilib və etdirilməkdədir. Ulu öndərimizin müəyyənləşdirdiyi siyasi xəttə sədaqət, aydın siyasi mövqe, yorulmaz fəaliyyətdən ibarət olan inkişafın Naxçıvan modeli muxtar respublikanın tərəqqisinin əsasını təşkil edir.

Tədbir digər çıxışlarla davam etdirilib.

**AZƏRTAC**

***Vaxtilə bərəkətli torpaqları, bol ruzili təknələri, barlı-bəhərli bağ-bağatları ilə köksünə sığal çəkən övladlarını əməksevərliyə, zəhmətkeşliyə səsləyən, zəngin, halal süfrəsinə dostunu mehman eyləyib, əzəmətli görkəmiylə düşmənindən öc alan, xalqçıçılıq, atçılıq kimi tarixi-mədəni simvolları, mədəniyyət, incəsənət korifeyləri, görkəmli muğam ustadlarıyla öyünən, fəxr duyan Ağdamım. 1314-cü ildə tikilmiş Qutlu Musa oğlu günbəzi, Üzərliktəpə, XIV əsrə aid daş abidələri, XVII əsrə aid Xanoğlu türbəsi, Pənahəli xanın və nəslinin XVIII əsrə aid imarəti, Şahbulaq qalası və digər memarlıq nümunələri ilə qədim türk-oğuz yurdu olduğunu isbat edən, Birinci Qarabağ müharibəsində 43 gün yağılara sinə gərən, Vətən müharibəsində bir güllə atılmadan bir gündə azadlığına qovuşan Qarabağın məğrur qalası, cəsarətlilik, mərdlik rəmzim. Artıq bir ili tamam olur doğma övladlarına əbədi sarılmağının, azadlığa qovuşmağının, həsrət dolu gözlərin daim inam Günəşindən nur alsın, yolun daha rəvan, daha aydın, gələcəyin parlaq olsun...***



## 43 gün yağılara sinə gərən, bir gündə azadlığına qovuşan məğrur qalam...

Deyirlər, ağ gün adamı ağardır, qara gün isə qaraldır. Bəli, qədim yurdumuz Ağdam, bütün bölgələrimiz kimi səni də ötən əsrin 70-ci illərinin ağ günləri ağartdı, firavanlığa qovuşdun. Ulu öndər Heydər Əliyevin ölkəyə uğurlu rəhbərliyi, məqsədyönlü fəaliyyəti nəticəsində o illər tarixinə inkişaf və tərəqqi dövrü kimi düşdü, 70-80-ci illərdə iri aqrar-sənaye, təsərrüfat rayonuna, bölgənin iqtisadi mərkəzinə çevrildin. Ancaq halal süfrəmizdə əyləşdirib bar-bəhərindən komasına pay tutduğumuz nankor ermənilərin gözü götürmədi digər ata-baba torpaqlarımız kimi sənin də günü-gündən gözəlləşməyini. Mənfur xislətləri, məkrli planları ilə qənim kəsilməyə başladılar havasından udub, suyundan içdikləri müqəddəs torpağına, əyri əlləri ilə zəhər gətirdilər, haram qatdılar duz-çörək kəsdiyimiz halal süfrəmizə...

Qədim yurdumuz, bilirəm, ağrılı-acılı 1993-cü ilin qaynar 23 iyul günündən sonra qabar bağladı əl-ayağın, qor düşdü kimsəsiz köksünə, evlərin viran qaldı, yemək bişən ocaqlarının tüstüsü dumana, hənirtisi buza döndü, uşaqların "Qovala-qaç" oynadığı həyət-bacalarında şən-şaqraq səslərin yerini nalayiq kəlmələrlə dolu yad küylər tutdu, qoyun-quzu bəslənən tövlələrdə qurd-quş yuva saldı. Altı mindən çox övladın şəhidlik zirvəsinə yüksəldi, minlərlə insanın sağlamlığını itirdi, 126 min nəfərdən çox sakinin öz doğma ev-eşiyindən didərgin düşdü, bərbəzəkli xonçalarla bəzənən, toy-lu-nişanlı ağ damlarına matəm çökdü, qara rəngə boyandı işıqsaçan küçələrin, xarabazara çevrildi məktəblərin, xəstəxanaların, klubların, kitabxanaların. Azan səsi gəlməz oldu məscidlərindən, musiqi sədaları kəsildi mədəniyyət ocaqlarından, tikan, ot-alaf basdı barlı-bərəkətli torpaqlarını, yad ayaqların tapdağına çevrildi ata-babalarımızın uyuduqları məzarıstanlıqların. Şəhərində təbiət abidəsi kimi qorunan, yüzilliklərə meydan oxuyan, şərəf dolu tarixinə şahidlik edən 14, Boyəhmədli kəndinin ətrafında isə 71 Şərq çinarının o müdhiş, vahiməli gündən sonra daha əvvəlki əzəməti qalmadı, qəddi-qaməti əyildi, köksünü qəm-qüssə rüzgarı ürpələdi, yaz-yay aylarında şaqqur-şuqqur aşıb-daşan, tarlaları bərəkət ətrinə bürüyən, bol sulu, nəğməkar Xaçın çayının zümzüməsi kəsildi, gecə-gündüz hicran hayqırtısı ilə çağladı Xaçın. Mişardaşı, Çobandağ əhəngdaşı, Boyəhmədli və Şorbulaq kimi gil yataqların gavurların əlində tar-mar olundu, çapıb-taladılar sərvətlərini. Yeganə təsəllin isə didərgin salınan övladlarının sonrakı taleyinin sənini qədər əzablı olmaması idi. Uzaqdan-uzağa şahidi oldun ki, yurdlarından məcbur köçən insanlar doğma el-obamız tərəfindən biganəliklə üzləşmədi, ölkəmizin hər yerində onlara isti münasibət göstərildi, bir qismi azad hissəndə, digərləri isə onlar üçün ayrılmış torpaq sahələrində tikilən, hər cür şəraitə malik yeni mənzillərdə yerləşdirildi. Sakinlərin üzləşdikləri problemlər öz həllini tapdı, sosial müdafiələrini gücləndirmək məqsədilə tədbirlər görüldü. Onlar hər cür şəraitlə təmin olunub firavan həyat yaşasalar da, daim arzuladılar öz ata-baba yurdlarının azadlığını, gecələr röyalarına qonaq gəldin, gündüzlər, xəyallarından getmədin, nağıla, dastana, laylaya döndün, dillərindən düşmədin heç bir an belə...

2016-cı ilin aprel və 2018-ci ilin may aylarında qüdrətli ordumuzun qazandığı zəfərlər, şübhəsiz ki, səni də fərəhləndirdi, qürurlandırdı. Tezliklə azadlığına qovuşacağına böyük inam, əminlik hissi yaratdı Müzəffər Ali Baş Komandanımız, vətənpərvərlik nümunəsi yaradan mübariz xalqımız, döyüşdə şücaət göstərən mərd oğullarımız. Və nəhayət, düşmənin ardarda təxribatından zinhara gələn yenilməz ordumuz sənin, Qarabağımızın azadlığı naminə 2020-ci il sentyabrın 27-də başladı əks-hücum əməliyyatlarına. Qalib gəldik 44 gün çəkən haqq-ədalət müharibəmizdə, mübarizəmizdə, düşmənin belini sındırdı "Dəmir yumruq", çin çıxdı, yerinə yetdi həsrətdən alovlanan qəlbimizdəki müqəddəs arzular, mübarək diləklər. Doğma torpaqlarımızın nicatına aparan bu 44 günlük yolda şəhidlər verdik, ağrı-acılar yaşadıq, ancaq əyilmədik, yıxılmadıq, məğrur dayandıq. "Təki Vətənimiz yaşasın, Qarabağımız mənfurlardan təmizlənsin" kimi mübariz kəlmələr dastan oldu dillərdə, üçrəngli bayrağımızla bəzəndi küçələrimiz, evlərimiz, eyvanlarımız, həyət-bacamız. Birliyimiz, bərabərliyimiz sayəsində illərin ədalətsiz hökmünə xitam verdik, şərəf, ləyaqət dastanı yazdı al qanları ilə oğullar. Mübariz əsgərlərimiz qısa zamanda darmadağın etdi düşmənin 30 il ərzində qurduğu istehkamları, müdafiə qurğularını, tar-mar olundu yalançı, saxta fobiyalar, qondarma miflər, əsassız iddialar. Azadlığına qovuşdu qədim, ulu torpaqlarımız. Ali Baş Komandanımızın zəfər dolu müjdəli xəbərləri ilə açıldı hər sabahımız. Tariximizə qızıl hərflərlə yazıldı noyabrın 8-ci, 10-cu günləri. İmzalanan üçtərəfli Bəyanatla sən də əbədi olaraq ötən ilin bu günü qovuşdun doğma anan Azərbaycana...

Ana yurdumuz Ağdam, yəqin, xatirindən çıxmaz, illər öncə ümummilli lider Heydər Əliyevin şəninə söylədiyi ***"Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şeirlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun. Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!"*** fikirləri. Dahi şəxsiyyətin bu dəyərli sözləri sənin kimi bizim də pak arzumuz, ülvi niyyətimiz, inam qayəmiz, ümid işığımız oldu bu illər ərzində. Siyasi iradəsi, uzaqgörənliyi, qətiyyəti ilə ulu öndərin müqəddəs arzusunu reallığa çevirdi, ata vəsiyyətini yerinə yetirdi Ali Baş Komandan cənab İlham Əliyev. Cari il mayın 28-də şəhərin bərpasının təməl daşının qoyulması mərasimində ictimaiyyətin nümayəndələri ilə görüşündə söylədiyi ***"...İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq..."*** sözlərdən sən də bizim kimi qürur duydun, fəxarət hissi keçirdin əlbət. Bəli, Birinci Qarabağ müharibəsində 43 günə uğrunda yüzlərlə can qurban versək də, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın sayəsində bir güllə atmadan, bir şəhid vermədən noyabrın 20-də qovuşduq sənə...

Daha ağrılı, kədərli anların, qəmqüssəli qara günlərin arxada qaldı ey Günəş şüaları ilə nurlanmış işıqlı, ağ evimiz, Ağdam! Çox sevincliyik, qürurluyuq ki, ta əvvəlkitək əsirliyindən, gavurlar əlində qalan naəlac əhvalından, həsrətli baxışlarından yazmır qələmimiz. Artıq gələcək firavan günlərin, xoşbəxt sabahların naminə atılan inamlı addımlardan söhbət açır sözlər, anbaan gözəlləşən siman tezliklə xitablarını daha nüfuzedici, daha cəlbedici, daha gözoxşayan, fərəh dolu edəcək, şübhəsiz. Gün o gün olsun ki, iqtisadi, sosial, mədəni həyatının inkişafından, tərəqqisindən, milli-mənəvi dəyərlərinin daha yüksək səviyyədə yaşadılmasından, təbliğindən, insanlarının qoynunda gülüstan yaratmasından, qonaqların köksündə mənəvi rahatlıq tapmasından, səninlə bağlı çin olan arzulardan, diləklərdən yazaq, vəsf eyləyək doyumsuz gözəlliklərini. Azadlığın daimi, əbədi olsun, əziz Ağdamım...

**Nail ƏSGƏROV**

## "Qədim dövlətçilik tariximizi, mübarizə əzmimizi yaşadan Naxçıvanı sevərək təbliğ edəcəyik"



*Xəbər verdiyimiz kimi, 17 noyabrdan etibarən yerli blogerlər muxtar respublikamızda səfərdədir. Noyabrın 19-da isə qonaqlar ilk olaraq Batabat yaylağı, Zəngəzur Dövlət Təbiət Qoruğu və Ağbulaq İstirahət Mərkəzi ilə yaxından tanış oldular. Qonaqlarımızın təəssüratlarını oxucularımıza çatdırırıq:*

***Baxşıyev Azər – interyer-dizayner, youtuber:*** – Naxçıvana ilk dəfə gəlməyimə baxmayaraq, bu diyar haqqında çox eşitmişdim. Kimlər ki bu yerlərdə olmuşdu, onlar bizdə müəyyən təəssürat yaratmışdı. Lakin gəlişimizlə eşitdiyimizdən tamamilə fərqli Naxçıvanla qarşılaşdıq. Fərqli üslubda gözəlliklər şəhəri adlandıra bilərəm buranı. Dizayner kimi əsas diqqətimi çəkən binaların qədimiliyini qorumaq yolu ilə müasirləşdirilməsi oldu. Memarlığı, şəhərsalma mədəniyyəti ilə yanaşı, bu yerin təbiəti məni valeh etdi. Hətta gələcəkdə bir interyer-dizayner kimi burada hər hansı bir ofis yaradıb Naxçıvan memarlığına öz töhfələrimi də vermək istəyərəm.

Biz bu gün Batabat yaylağında, Zəngəzur Dövlət Təbiət Qoruğunda və Ağbulaq İstirahət Mərkəzində olduq. Meşəlik sahəsi az olsa da, Batabat yaylağında vəhşi təbiəti hiss edə bildik. Gölləri, bulaqları ilə hər zaman dillərdə əzbər olan bu yerləri izləyicilərimizə çatdırmağa tələsirəm. Onu da deyim ki, insanların qonaqpərvərliyi bizi valeh etdi. İzləyicilərim içərisində naxçıvanlılar da var ki, onların hər biri burada olduğumuzu bilən kimi qonaq dəvət edir. Ümumiyyətlə, bu qonaqpərvərliklə hər addımbaşı rastlaşırıq. Mətbəxi isə, demək, olar ki, ağız dadımızı tamamilə dəyişdi. Düzdür, Azərbaycan mətbəxinin tərkib hissəsidir, lakin burada hazırlanan təamlar bizi daha çox cəlb etdi. Xüsusilə heyva dolmasını qeyd edə bilərəm.

Biz artıq üçüncü gündür ki, buradayıq. Bir çox yerlərdə olmuşuq. Onlardan Heydər Əliyev Muzeyi, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olduq. Burada dəyərli eksponatlar diqqətimizi çəkdi. Əsasən, ümummilli liderimizin adını daşıyan muzeydə dahi şəxsiyyətə məxsus əşyalar, çətin dövrdə şam işığında imzalanmış sənədlərə tamaşa etmək qürur hissi doğurdu. Möhtəşəm və ən yaddaqalan ekskursiyamız isə Əlincəqala Tarix-Mədəniyyət Muzeyinə oldu. İnsan tarixin qürurverici anlarını yaşayır, sanki. İllərlə işğalçıların mühasirəsində qalmaq və təslim olmamaq burada yaşayan insanların qəhrəmanlığının rəmzidir. Bir zamanlar texnikanın, şəraitin olmadığı dövrlərdə belə, bir qalanı inşa edənlərə isə, sadəcə, əhsən demək olar. Bu gün isə müasir standartlarla təmir-bərpa işlərinin aparılması burada yaşayan insanların təfəkkürünə, milli dəyərlərimizə verdiyi qiymətdir. Başımızın üzərində süzən qartallar da, sanki Naxçıvan əhalisinin məğrurluğundan pay alıblar. Onu da deyim ki, 44 günlük Vətən savaşımızda Naxçıvan igidlərinin seçilməsi göz qabağında idi. Təbiidir ki, müharibə varsa, şəhid də olmalıdır. Lakin burada hər gələn şəhidin ehtiramla, ehtiramla, ellikl ə qarşılanması diqqəti daha da cəlb edirdi.



Növbəti müsahibim 70 minlik izləyici kütləsinə sahib olan ***"Vitek" salonlar şəbəkəsinin direktoru Elnarə Nəhmədova****dır*: – Mən də bir çox iştirakçı kimi ilk dəfədir, Naxçıvandayam. Səfərimizin ilk başladığı gün gedəcəyimiz əraziləri öyrəndikcə xüsusi maraqla qarşılayırdıq. Görəsən, necə bir yerdi, nələrlə qarşılaşacağıq deyə... Amma artıq getdiyimiz hər bir bölgədə rastlaşdığımız auradan, insanların səmimiyyətindən bizdə bir əminlik yaranıb. Buradakı qardaşlıq, səmimiyyət, hər şey çox gözəldir. İlk olaraq onu deyim ki, Naxçıvan tam olaraq təbiət parkı kimi bir yerdir. Xüsusilə havası çox gözəldir. Şəhəriniz isə təmiz və səliqəlidir. Bir neçə gündür ki, buradayıq. Bu günlər ərzində fərqli yerlərdə olduq. Onlar arasında ən çox diqqətimi Duzdağ Fizioterapiya Mərkəzi çəkdi. Buradan görüntüləri



paylaşan kimi bir çox izləyicilərim bu yerin faydasını necə gördüklərini yazdılar. Yəni Naxçıvan haqqında müsbət rəyləri tək mən yox, buraya ayrı-ayrı zamanlarda gələn izləyicilərim də vermiş oldu. Fürsətdən istifadə edib istirahət üçün xarici ölkələrə vəsait xərcləyən izləyicilərimə bu yerlərin səfasından danışacağam ki, öz doğma yerlərimizi gəlib görüb, faydalansınlar.

Burada diqqətimi çəkən məqamlardan biri də mətbəx nümunələri oldu. Çünki mən qidalanmağıma xüsusi diqqət yetirirəm. Öyrəndəm ki, Naxçıvanda qida məhsullarına xüsusi nəzarət var bu məni sevindirdi. Hətta 2 ildən artıqdır ki, ət yeməkləri dadmadığım halda burada ətin belə, dadına baxdım. Mətbəxi, bir sözlə, möhtəşəmdir. Mənim üçün burada ən heyrətamizi Əlincə qalası oldu. Bura qalxmaq o qədər asan olmasa da, hər bir iştirakçı alınmaz qala kimi tarixə düşən bu yerləri görmək üçün dəniz səviyyəsindən kilometrlərlə yüksəklikdə yerləşən bu qalaya qalxmağa can atdı. Aldığımız məlumatları, eləcə də buranın görüntüsünü izləyicilərimə çatdırmaq isə mənim üçün çox qürurverici bir vəzifədir. Mənim kimi bu yerlərdə ilk dəfə olanlar var ki, onlar həm özləri Naxçıvanı kəşf edir, öyrənir, tanış olur, həm də milyonlarla izləyicini bu yerlərə səyahət etdirməklə tanıtmış olurlar. Əminəm ki, geri qayıtdıqdan sonra danışmaqdan doymayacağım ünvanlar içərisində Əlincəqalanın, Duzdağ Fizioterapiya Mərkəzinin xüsusi yeri olacaq.

Səyahət etdiyimiz yerlər içərisində hazırda dayandığımız Ağbulaq İstirahət Mərkəzi haqqında onu deyə bilərəm ki, blokada şəraitində yaşayan bir diyarda bu cür infrastrukturun yaradılması inanılmazdır. Burada gördüklərimi mənə kənardan danışsaydılar, bəlkə də, inanmazdım. İnsanların istirahəti üçün yaradılan şərait möhtəşəmdir. Fürsətdən istifadə edib kanat gəzintisində də olduq. Məlumat verdilər ki, kanat 900 metrdən çox sahəni əhatə edir və 260 metrə yaxın yüksəkliyə qalxır. Burada qış turizminin ən maraqlı sahəsi olan xizəkçilik də fəaliyyət göstərir. Təəssüf ki, hazırda qar olmadığından biz ondan istifadə edə bilmədik, amma insanlar üçün bu cür şəraitin yaradılması, əlbəttə ki, ürəkaçandır.

**Telli MƏMMƏDOVA**

## Ailə təsərrüfatları qayğı ilə əhatə olunub

***Son illərdə muxtar respublikamızda həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də yaşayış məntəqələrində kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Ucqar ərazilərdə, sərhəd bölgələrimizdə də bu yolla daha çox iş imkanlarının yaradılması isə dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin gündən-günə artması da bununla bağlıdır. Bu uğurların qazanılmasında yeni və mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının da böyük rolu var. Naxçıvanda bu təsərrüfat forması ilə məşğul olan insanlara hər cür köməklik göstərilir. Görülən işlərin nəticəsidir ki, belə təsərrüfatların sayı ildən-ilə artır. Bu qayğıdan qadınlarımıza da pay düşüb.***

Şərur rayonunda hazırda qadın ailə təsərrüfatı başçısı çoxdur. Onlardan biri də rayonun Cəlilkənd sakini, ölkə başçısının müvafiq Sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilən ***Familə Mirzəyeva***dır. Onu nəinki kənddə, hətta



bütün Şərurda fəal torpaq mülkiyyətçisi kimi tanıyırlar. Əkib-becərmək zəhmət tələb edən iş olsa da, bu çətinliklər onu qorxutmayıb, əksinə, torpağa daha möhkəm tellərlə bağlanıb. Elə ötən günlərdə onunla söhbətimiz də torpağa sahiblənməyin qadınlarımız üçün üstünlükləri barədə oldu.

Familə Mirzəyeva dedi ki, 1999-cu ildən təsərrüfat qurmağa başlayıb. Dövlətimizin diqqət və qayğısı sayəsində bütün çətinliklərə sinə gərə bilib: – Əvvəllər bu işə başlayarkən bir çox insanlar buna gücümün yetməyəcəyini deyirdilər. Ancaq heç bir maneəyə görə ruhdan düşmədim, addım-addım da olsa, uğura gedən yolda bərkidim, istədiyimə nail ola bildim.

Familə xanımın sözlərinə görə, torpaq onun qədrini bilənin, ona min bir zəhmətlə qulluq göstərənin əziyyətinin əvəzini birə-beş qaytarır. Atalarımızın "Torpaq deyər öldür məni, dirildim səni" məsəli həmişə özünü doğruldub. Ailəmizin firavan dolanışığı torpaqla, əkin-biçinlə təmin olunur.

Müsahibim onu da deyir ki, muxtar respublikada həyata keçirilən tədbirlər ailə təsərrüfatçılarını daha geniş fəaliyyətə ruhlandırır, onlar ilbəil məhsullarının çeşidini artırırlar. 20 arı ailəsi var, 1 hektar sahədə sarımsaq əkib. Gələcəkdə 3 hektarda taxıl əkməyi nəzərdə tutub. Şərur Sənaye Məhəlləsinin istifadəyə verilməsini gözləyən ailə təsərrüfatı başçısı orada yeni sahə olacaq qarğıdalı yağı istehsalına öz töhfəsini vermək üçün gələcəkdə qarğıdalı əkməyi də planlaşdırır.

Sədərək rayonunun Sədərək kənd sakini, Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adına layiq görülən ***Mehparə Hüseynova*** da muxtar respublikada tanınan qadın ailə təsərrüfatı başçılarından biridir. Onun sözləri:



– Dövlətimiz bir çox sahələrdə bizə dəstək verir ki, bunlardan biri də istehsal etdiyimiz məhsulların yarmarkalarda satışının təşkilidir. Belə tədbirlər həm şəhərdə yaşayan insanlara, həm də bizə yaxından kömək edir. Biz yay, payız boyu hazırladığımız məhsulları satıb illik ruzimizi qazanır, onlar isə şəhərdə hazırlaya bilməyəcəkləri məhsulları alıb süfrələrinə aparır. Mehparə xanım onu da deyir ki, 2018-ci ildə keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında üçüncü, 2019-cu ildəki "Kətə" festivalında ikinci, 2019-cu ilin "Ailə təsərrüfatı məhsulları" festivalında isə birinci yerə layiq görülüb.

Torpağa qəlbən bağlanan Mehparə muxtar respublikada həyata keçirilən tədbirləri yüksək dəyərləndirir: – Dövlətimizin məqsədi odur ki, hər bir kəndli ona düşən torpaq payını boş saxlamasın. Buna görə də kənd adamlarına güzəştli kreditlər verilir, istehsal olunan məhsulun satışı təşkil edilir. Satış yarmarkalarında bir torpaq adamı, məhsul istehsalçısı kimi sevinirəm ki, mən də iqtisadiyyatımıza az da olsa, töhfə verirəm.

Gələcək planlarından söhbət açan müsahibim onu da bildirir ki, dövlət maliyyə dəstəyi ilə kənd qadınları ilə birgə yeni təsərrüfat sahəsi yaratmaq istəyir. Ona görə də gələn mövsümdə daha çox tərəvəz əkib-becərməyi planlaşdırır. Mehparə xanım onu da deyir ki, təsərrüfatını genişləndirərək qış üçün azuqələrin – meyvə şirələrinin, mürəbbələrin, cemlərin, müxtəlif yeməklərin hazırlanıb qablaşdırılması üçün şərait yaratmağı da planlaşdırır. Burada on qadına yeni iş imkanı açılacaq.



Kəngərli rayonunun Qarabağlar kənd sakini ***Pakizə İsmayılova*** kəndin qoçaq qadınlarındandır. O öz həyətyanı torpağını əkib-becərir, maldarlıqla məşğul olur. Deyir ki, bu torpağın hər qarışı ruzi mənbəyidir. Bir əkən, min biçir. Alın tərin torpağa qarışdısa, deməli, o torpaq bərəkətlənəcək. Yaz olanda Qarabağlar dağlarını kəklikotunun ətri bürüyür. Başqa dərman bitkiləri də var. Onları toplayıb həm şəxsi istifadəmiz, həm də yarmarkalarda satışa çıxarmaq üçün qablaşdırırıq. Heyvandarlıqla da məşğuluq. Bərəkətli torpaqlarda bitən bitkilərlə qidalanan mal-qaranın südü də bol olur. Ağartı məhsullarının istehsalına üstünlük verirəm. Hazırladığım pendir, şor-kərə yaxşı alıcı toplayıb. Yayda həyət-bacada yetişən meyvə-tərəvəzlərdən müxtəlif mürəbbələr hazırlayır, turşular qoyuruq. Dövlətimizin qayğıkeş əli isə həmişə çiynimizdədir. Sərmayə kapitalından tutmuş kreditə və müxtəlif sahələrdə köməkliyə kimi hər cür qayğı görürük. Məhsullarımızı hər həftənin şənbə günü keçirilən yarmarkalara, eləcə də festivallara çıxartmaqla yaxşı alıcı toplayırıq. Qədim diyarımızda bizim üçün o qədər gözəl şərait yaradılıb ki, kim işləsə, yaxşı dolana bilər.

Həmsöhbət olduğumuz ailə təsərrüfatçılarının səy və təlaşla bu gün keçirilən "Ailə təsərrüfatı məhsulları"nın satış-yarmarkasına hazırlaşdıqlarını müşahidə etdik, onlara uğurlar arzuladıq.

*Əziz oxucular! Siz də diyarımızın keyfiyyətli, dadlı-tamlı, min bir dərdə dərman nemətlərindən hazırlanan ailə təsərrüfatı məhsullarından almaq istəyirsinizsə, hər birinizi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən satış-yarmarkaya dəvət edirik.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Heyvandarlığın inkişafına ailə təsərrüfatları da öz töhfəsini verir

***Muxtar respublikanın digər bölgələrində olduğu kimi, Şərur rayonunda da kənd təsərrüfatının aparıcı sahələrindən biri kimi heyvandarlıq da sürətlə inkişaf etdirilir. Heyvandarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat adamlarına lazımınca dəstək göstərilməsinin nəticəsidir ki, rayonun kəndlərində heyvandarlıqla məşğul olan ailə təsərrüfatlarının sayı ildən-ilə artır.***



Püsyan kəndinin də ailə təsərrüfatı yaradan və səmərəli şəkildə fəaliyyət göstərən zəhmətkeş insanları çoxdur. Onlardan biri də Elşən Tağıyevdir. Onunla həmsöhbət olduğumuz zaman dedi: – Zəhmətkeş bir ailədə anadan olmuşam. 1996-cı ildən bəri heyvandarlıqla məşğulam. Biz, necə deyərlər, Günəşi salamlayanlardanıq. Günəş çıxmadan sübh tezdən yuxudan durub heyvanların qidalanması, mal-qaranın sağılması, tövlənin təmizlənməsi və sair işlərlə məşğul oluruq. Günəş ilk işığını saçanda artıq mal-heyvanı çölə aparırıq. Püsyanın yaylaqları, göz işlədikcə uzanan geniş örüşləri, son dərəcə əlverişli iqlimi bu yerlərdə heyvandarlığın inkişafına və yüksəkkeyfiyyətli məhsulların alınmasına zəmin yaradır. Hazırda təsərrüfatımda 60 baş iribuynuzlu və 250 baş xırdabuynuzlu bəsləyirəm. Heyvanları yayda yaylaqlara aparır, qışda isə öz həyətyanı fermamızda saxlayırıq. Bunun üçün bol yem ehtiyatı yaratmışıq. Yem toplamaqda da çətinliyimiz yoxdur. Çünki özüm də əkin-biçinlə məşğul oluram. Gərək hər bir heyvandar əkinçiliklə də məşğul olsun ki, heyvandarlıq təsərrüfatı üçün yem tədarükü sarıdan korluq çəkməsin. Muxtar respublikamızda sahibkarlara ayrılan güzəştli kreditlərin həcminin ildən-ilə artırılması təsərrüfat adamlarının öz təsərrüfatlarını genişləndirməsinə və yeni iş yerlərinin yaradılmasına təkan verir. Təsərrüfat adamlarına yaradılan belə şərait, göstərilən qayğı ölkəmizdə ərzaq bolluğunun təmin olunmasına əsaslı zəmin yaradır. Biz də bütün bu imkanlardan istifadə edərək təsərrüfatımızı genişləndirməklə ölkəmizdə bolluq yaradılmasına çalışırıq. Rayon Baytarlıq İdarəsinin işçiləri tez-tez təsərrüfatlarda olur, biz təsərrüfat adamları ilə maarifləndirici söhbətlər aparır, heyvandarlıq təsərrüfatlarına pulsuz baytarlıq xidməti göstərirlər. Baytarların apardıqları tədbirlər hesabına təsərrüfatlarımızda itki halları azalır, yoluxucu xəstəliklərin qarşısı alınır. Bütün bunlar təsərrüfatımızın inkişafına kömək edir.

Müsahibim deyir ki, təsərrüfatımı gələcəkdə bir qədər də genişləndirmək fikrindəyəm. Onu da deyim ki, heyvandarlıq təsərrüfatı yaratdıqdan sonra ailəmin dolanışığı daha da yaxşılaşıb. Doğrusu, təsərrüfatım o qədər də xərc tələb etmir. Pay torpaqlarını əkib-becərdiyimdən təsərrüfatımdakı heyvanların yemini satın almıram.

Öyrənirik ki, ailə təsərrüfatında iki oğlu – Elşad və Sultan ona yaxından kömək edirlər. Sultan Tağıyev deyir ki, kənd təsərrüfatı sahəsi başqa sahələrə bənzəməz, necə deyərlər, birlik olan yerdə məhsul da var, qazanc da. Kənddə yaşayan, lakin torpağa xor baxan insan maddi dolanışıq çətinlikləri ilə yanaşı, həm də ən ağır qınağa layiqdir. Deyərdim ki, kənd adamı üçün hər zaman iş var. Yaxşı məhsul götürmək üçün gərək heyvana qayğı göstərəsən, vaxtlı-vaxtında suyunu, yemini verəsən. Onu da deyim ki, əldə etdiyimiz süd məhsullarından qatıq, pendir, xama, şor-kərə istehsal edirik. Məhsulumuzu heç bir çətinlik çəkmədən bazara çıxarır, həm də hər il Naxçıvan şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında iştirak edərək sata bilirik. İstehsal olunan məhsullarımızın qablaşdırılması onlara olan tələbatı daha da artırıb. Bu da bizi həvəsləndirir.



*Bu gün ailə təsərrüfatları xüsusi təsərrüfatçılıq forması olub kollektiv əməyə və iqtisadi fayda götürmək prinsipinə əsaslanan sahibkarlıq formasıdır. Şübhəsiz, bu sahədə qazanılan təcrübə əhalinin keyfiyyətli yerli məhsullara olan tələbatını ödəməklə yanaşı, kənd yerlərində yaşayan əhalinin məşğulluğunun təmin edilməsinə və sosial-iqtisadi inkişafa da öz töhfəsini verməkdədir.*

✍ **Aytac CƏFƏRLİ**

*Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə IX-XI sinif şagirdləri arasında məktəblilərin muxtar respublika fənn olimpiadasının muxtar respublika mərhələsi keçirilib.*

## Fənn olimpiadasının final mərhələsi keçirilib



Muxtar respublika fənn olimpiadası Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə təşkil olunub.

Qeyd edək ki, oktyabrın 23-də ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan 534 şagirdin iştirakı ilə məktəblilərin muxtar respublika fənn olimpiadasının şəhər (rayon) mərhələsi keçirilmişdir. Bu mərhələdə yüksək nəticə göstərən Təhsil Nazirliyinə birbaşa tabe məktəblərdən, ümumilikdə, 182 şagird muxtar respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Nəticəyə əsasən I, II və III yerlərin qalibləri Təhsil Nazirliyi tərəfindən diplomla təltif olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Şahmatçılarımız Türkiyədə





Mersin Yenişəhər Bələdiyyəsi Atatürk Kültür Mərkəzində Türkiyə Şahmat Federasiyası və Mersin Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi "Mersin Böyükşəhər Bələdiyyəsi V Uluslararası Satranç Turnuvası"na start verilib.

Noyabrın 21-dək davam edəcək turnirdə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının müəllim və şahmatçıları da mübarizə aparır.

Reqlamentə əsasən turnir iki qrupda – "A" və "B" qrupları üzrə keçirilir. 82 zəka sahibinin mübarizə apardığı "A" qrupunda 4 idmançımız – Talıb Babayev, Toğrul Həsənzadə, Pərviz Qasımov və Nəsrin Babayeva iştirak edir. 15 şahmatçımız isə 354 zəka sahibinin mübarizə apardığı "B" qrupunda qərarlaşıb.

Türkiyə, Gürcüstan, Türkmənistan, İran, Ukrayna, Qazaxıstan, Suriya, Azərbaycan, Avstraliya, İordaniya, Hindistan, Rusiya və Belçika şahmatçılarının mübarizə apardığı turnirdə artıq 5 tura yekun vurulub. Şahmatçılarımızdan beynəlxalq usta Toğrul Həsənzadə və FIDE ustası Pərviz Qasımov 3,5 xalla 15 və 16-cı pillələri bölüşürlər. Hazırda turnir cədvəlinə 5 xalla avstraliyalı beynəlxalq qrossmeyster Temur Kuybokarov başçılıq edir.

## Güləş birinciliyi yekunlaşıb

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında yeniyetmələr (2007-2009-cu illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 13 çəki dərəcəsi üzrə 70-dən çox idmançı öz qüvvələrini sınayıb.

Yekun nəticəyə əsasən İsmayıl Rüstəmov (32 kiloqram), Turqay Məmmədli (35 kiloqram), Tuqay Qəhrəmanlı (38 kiloqram), Məhəmməd İsmayılov (42 kiloqram), Sadiq Kərimov (46 kiloqram), Namiq Əlizadə (50 kiloqram), Ülvi Şahbazov (54 kiloqram), Elnur Məmmədov (58 kiloqram), Yasin Hüseynli (63 kiloqram), Elbrus Kazımov (69 kiloqram), Fərhad Rzayev (76 kiloqram), Elxan Əhmədli (85 kiloqram) və Süleyman Məmmədov (92 kiloqram) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Abdullayev Elşən Hüseyn oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 974